Heydər Əliyev-90

# Ləyaqətli ömür yolu

Bəşəriyyətin ən qədim insan məskənlərindən biri olan Azərbaycanın şanlı tarixi olmuşdur. Doğma vətənimizi ağır sınaqlardan çıxarmaq vəzifəsi müvafiq dövrlərin, böyük şəxsiyyətlərinin üzərinə düşüb. Bu gün adlarını iftixarla çəkə biləcəyimiz bir çox şəxsiyyətlər var ki, Azərbaycan tarixinin müxtəlif mərhələlərində vətənimizin başını həmişə uca edib, onun şərəf və ləyaqətini düşmənlərdən qoruyaraq dünyanın qüdrətli sərkərdələri sırasına daxil olublar. Azərbaycan torpağının yetişdirdiyi Cavanşir, Babək, Şah İsmayıl Xətai, Fətəli xan, Cavad xan kimi xalq qəhrəmanları və dövlət başçıları doğma torpağımızın keşməkeşli və taleyüklü illərində ona arxa-dayaq olub, doğma vətənimizin keşiyində sədaqətlə durublar.

Azərbaycanın müstəqilliyini qorumağı, möhkəmləndirməyi və inkişaf etdirməyi özünə bir vəzifə, bir borc hesab edən belə tarixi şəxsiyyətlərdən biri də xalqımızın fəxri, ümummilli liderimiz Heydər Əliyev olmuşdur. Dünyanın ən məşhur siyasətçilərindən biri sayılan Heydər Əliyev 1923-cü il may ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Sadə, kasıb, milli Azəraycan adət-ənənələri ilə böyüyüb boya başa çatan, layiqli ailə tərbiyəsi görən Heydər Əliyev bütün müsbət keyfiyyətləri özündə birləşdirirdi. Ali təhsil aldıqdan sonra müxtəlif vəzifələrdə işləmiş, doğma vətənimizin çiçəklənməsində böyük uğurlar əldə etmiş, xalqa olan dərin məhəbbət hissi ilə qurub-yaratmışdır. Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə seçilmişdir. Azərbaycana rəhbərlik etdiyi 14-il ərzində min illər boyu əldə edilməsi mümkün olmayan böyük nailiyyətlər əldə edilmişdir ki, bunlar Azərbaycanın şöhrət qazanmasına, dünya ölkələri sırasında özünə layiqli yer tutmasına səbəb olmuşdur. Respublikada geniş miqyaslı quruculuq işləri aparılmış, yeni yaşayış massivləri, binalar, məktəblər tikilmiş, yollar salınmışdır. Keçmiş Sov. İKP Mərkəzi Komitəsi siyasi bürosunun üzvü olan Heydər Əliyev 1982-ci ildə Moskvaya dəvət olunmuş və ona SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsi tapşırılmışdır. O, həmin vəzifədə çalışarkən də Azərbaycanla əlaqəni kəsməmiş, doğma vətəninin daha da irəli getməsi üçün əlindən gələni əsirgəməmiş, onun qələbələrinə ürəkdən sevinmişdir.



1990-cı ildə Azərbaycanın siyasi həyatında çox mürəkkəb bir dövr başlandı. Vətənimizin başının üstünü qara buludlar aldı. Tariximizə qanlı hərflərlə yazılmış 1990-cı il yanvarın 19-dan 20-nə keçən o dəhşətli, müdhiş gecədə 147 həmvətənlimiz qətlə yetirildi. Azərbaycan xalqının bu faciəsinə biganə qala bilməyən Heydər Əliyev sovet imperiyasının bu qanlı cinayətinə açıq etirazını bildirdi. 20 yanvar günündə xalqın səsinə səs verən Heydər Əliyev o vaxtlar xüsusi nəzarət altında olmasına baxmayaraq özünün və ailə üzvlərinin həyatını təhlükə altında qoyaraq, ölkəmizin Moskvadakı daimi nümayəndəliyinə gəlir və bu faciəni törədənləri, şəxsən M. S. Qorbaçovu kəskin ittiham edir. Sovet imperiyasının hələ hökm sürdüyü bir vaxtda paytaxtın özündə dövlət başçısını tənqid etmək böyük cəsarət tələb edirdi. Elə bu zaman millət öz müdrik rəhbərini tanıdı və başa düşdü ki, onları işıqlı sabaha aparacaq, düçar olduqları bu bəladan xilas edə biləcək ancaq və ancaq Heydər Əliyev dühası ola bilər.

XX əsrin əvvəllərində qazandığımız müstəqilliyin ömrü az oldu, qısa müddətdən sonra onu itirdik. Zor gücü ilə sovet imperiyasının tərkibinə qatılan Azərbaycan xalqı 1990-cı il 20 yanvar hadisələrindən sonra artıq dözə bilmirdi. Bu vaxtlarda xalq artıq o xalq deyildi, o ayağa qalxdı və öz sözünü qəti şəkildə dedi. 1991-ci il oktyabrın 18-də respublikanın Milli Məclisi Azərbaycanın dövlət müstəqilliyi haqqında qanun qəbul etdi. Ancaq müstəqillik qurbansız əldə edilmir. Bu yolda yenə də qurbanlar verdik, faciələrlə üzləşməli olduq, torpaqlarımızın 20 faizi erməni cəlladları tərəfindən işğal olundu, yüz minlərlə adam öz yurd-yuvasından didərgin düşdü. Bu zaman Heydər Əliyev Azərbaycan tarixində ilk dəfə olaraq BMT-nin tribunasından xalqımızın haqq səsini, müstəqillik elan etdiyini bütün dünya ictimaiyyətinə çatdırdı. Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağı yenidən dalğalanmağa başladı. 1993-cü il 15 iyunda yenidən dövlət başçısı seçilən Heydər Əliyev vətənini, millətini canından artıq sevən bir şəxsiyyət kimi xalq qarşısında söz verdi, dövlət bayrağımızın önündə diz çökdü, müqəddəs Qurani-Kərimə əl basdı və öz müraciətində bu sözləri dedi: "Heç kəsin şübhəsi olmasın, harada olursa olsun ömrümün qalan hissəsini də yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Azərbaycan Respublikası bundan sonra da başına nə gəlirsə gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir dövlətin əsarəti altına düşməyəcəkdir".

Heydər Əliyev özünü həmişə xalqın içərisində görürdü, onun dərdi və qarşısına çıxan problemləri ilə maraqlanırdı. Həyatının mənasını yalnız vətənə xidmətdə görən Heydər Əliyev sözün həqiqi mənasında böyük insan idi. Bu gün biz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində işıqlı bir gələcəyə qovuşmuşuq. Heydər Əliyevin ideyaları ilə yaşayan Azərbaycan xalqı inkişaf edir, günü-gündən gözəlləşir, daha da böyük qələbələrə yüksəlir. Biz Azərbaycanın bu böyük oğlu ilə fəxr edirik və onun yaşadığı bir ölkənin vətəndaşı olduğumuz üçün özümüzü xoşbəxt sayırıq. Bu gün onun yoxluğu qəlbimizi sızlatsa da, ürəyimizin dərinliklərindən kaş ki, aramızda olsaydı hissi baş qaldırsa da əfsus o, artıq bizimlə deyil. Təsəllimiz odur ki, ümummilli liderimizin başladığı işi bu gün onun layiqli, siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev uğurla davam etdirilir. Biz inanırıq ki, İlham Əliyevin apardığı siyasət nəticəsində vətənimiz daha da gözəlləşəcək, işğal olunmuş torpaqlarımızı azad ediləcək və Azərbaycan həmişə müstəqil bir dövlət olaraq qalacaqdır.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin bir zalı ümumilikdə Heydər Əliyevin həyat və fəaliyyətini aydın şəkildə nümayiş etdirir. Onun bütün fəaliyyəti dövründə gördüyü səmərəli işlər və işgüzar görüşlər, elmi-siyasi toplantılar, xüsusi fotolarla sərgidə geniş yer almışdır. Muzeyimizə gələn bütün tamaşaçılar bu guşəyə baxanda ulu öndərimizi dərin hörmətlə, böyük məhəbbətlə yad edirlər.

**Tahirə ŞƏFİYEVA,**
**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşı.**

Səyyar qəbullar

# Kənddə görüş

Aprel ayının 2-də rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Cığatelli kəndində əhali ilə görüşmüşdür. Görüşdə kənd ağsaqqalları, ziyalılar və ictimaiyyətin nümayəndələri iştirak etmişlər. Məlumat verildi ki, burada 167 kəndli təsərrüfatında 637 nəfər əhali yaşayır. Onların əsas məşğuliyyəti kənd təsərrüfatı məhsulları istehsal etməkdir. Eyni zamanda kənd sakinlərindən bəziləri Qəbələ şəhərindəki tikintilərdə, zavod və fabriklərdə çalışırlar.





Kənddə hüquq qaydalarının və davranış normalarının pozulmasına yol verilmir

Görüşdə kəndin ümumi vəziyyəti, əhalinin məşğulluğu, xidmət təşkilatlarının işi və başqa məsələlərə daha çox diqqət yetirildi. Kənd icra nümayəndəsi Bəkir Nəbiyev bu barədə məlumat verərək qeyd etdi ki, kəndin sosial problemləri müntəzəm həll olunur. Belə ki, rabitə, su, işıq təchizatı yaxşılaşdırılmış, yolların təmirinə başlanılmışdır. Əhalinin böyük əksəriyyəti pay torpaqlarının becərilməsi ilə məşğuldur. Kənd sakinlərindən sənətkarlıqla, inşaat işləri ilə məşğul olanlar da vardır. Əhaliyə mədəniyyət, səhiyyə, rabitə, ticarət və iaşə xidmətləri göstərilir.

Səyyar qəbulda iştirak edən rayonun idarə və müəssisə rəhbərləri bu kənddə əhaliyə göstərilən xidmət işləri barədə RİH başçısına ətraflı məlumat verdilər.

Dialoq şəraitində keçən görüşdə kənddə problemlərin də olduğu qeyd olundu. Kənddə təsərrüfat işləri ilə bağlı su arxlarının təmizlənməsinə, qaz xəttinin çəkilməsinə, elektrik dirəklərinin dəyişdirilməsinə, kəndarası yolların təmirinə, yeni məktəb binasının tikilməsinə ehtiyac olduğu bildirildi.

Tədbirin sonunda rayon icra hakimiyyətinin başçısı əhalinin rifahının yüksəldilməsinin, bu istiqamətdə yeni iş yerlərinin açılmasının, adamların məşğulluğunun təmin edilməsinin möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən daim diqqət mərkəzində saxlanıldığını vurğuladı, hər bir kənddə sosial-iqtisadi tərəqqinin bundan sonra da davam etdiriləcəyini bildirdi.

**Oqtay MƏMMƏDOV.**
**Fotolar S. Umuyevindir.**